# Xalq qəzeti

"Xalq qəzeti" – Xalqın qəzeti!

Veb-sayt: www.xalqqazeti.com

30125) 15 yanvar 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

aycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

1919-cu ildən çıxır

# Azərbaycan –Türkiyə diplomatik münasibətlərinin yaranmasından 31 il ötür

**Birmənalı olaraq və qətiyyətlə deyə bilərik ki, Azərbaycan – Türkiyə dostluq və tərəfdaşlıq münasibətlərinin sonda müttəfiqlik statusuna malik olması ulu öndər Heydər Əliyevin işləyib hazırladığı xarici siyasət kursumuzun təntənəsidir. Ümummilli lider tövsiyə edirdi ki, biz qüdrətli Azərbaycan dövləti yaratmaq istəyiriksə, ilk növbədə türk dünyası ilə, sonra yaxın qonşularımız və İslam ölkələri ilə, daha sonra isə bütün dünya ilə bərabərhüquqlu əməkdaşlığa və tərəfdaşlığa nail olmalıyıq.**



Məlum olduğu kimi, Heydər Əliyev həmin siyasətin reallaşdırılmasına hələ Naxçıvana rəhbərlik etdiyi illərdə başlamışdı. Sonra həmin tendensiya "ümid körpüsü"ndən Şuşa Bəyannaməsinədək davam etdi. "Bu nəticə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun qat-qat artmasına səbəb olmuşdur" – deyənlər tamamilə haqlıdırlar.

Tarixi sənədlərdə oxuyuruq ki, Türkiyə Cümhuriyyəti Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Yeni Ankara Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il noyabrın 9-da, yeni müstəqilliyin elan edilməsindən dərhal sonra tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il yanvarın 14-də qurulub. Həmin münasibətlər yaranandan dərhal sonra isə qarşılıqlı əməkdaşlığa start verilmişdir. Doğrudur, müstəqilliyin ilk illərində Azərbaycanın Türkiyədə səfirlik açması mümkün olmamışdır. Bu arzumuz 1993-cü ilin yanvar ayında reallaşdırılmışdır.

Əməkdaşlıq və tərəfdaşlıq münasibətləri sonrakı dövrdə elə sürətlə inkişaf etmişdir ki, hətta həmin illərdəki faktların xronologiyasını belə tam qələmə almaq mümkün deyil. Ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan ölkələrimizin əlaqələri daha da inkişaf etdirilməkdədir.

Prezident kitabxanasının elektron resurslarında oxuyuruq ki, müasir dövrdə ölkəmizin etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Dövlət başçımızın da dediyi kimi, tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi, ticari, humanitar, hərbi, ümumiyyətlə bütün sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

Tərəflər arasında imzalanmış bəzi mühüm sənədlərin yada salınması yuxarıda qələmə aldığımız arqumentlərin təsdiqi kimi qəbul edilə bilər. Məsələn, 2010-cu il sentyabrın 15-də İstanbulda imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılmasına dair Birgə Bəyannamə ilə təsbit olunmuş YSSƏŞ-in mütəmadi keçirilən iclasları iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini vermişdir. Şuranın 25 oktyabr 2011-ci ildə İzmir şəhərində ilk iclası keçirilmiş, 11-12 sentyabr 2012-ci il tarixində Qəbələ şəhərində 2-ci, 2013-cü ilin 12-13 noyabr tarixlərində Ankarada 3-cü, 2015-ci ilin 14-15 yanvar tarixlərində Ankarada 4-cü, 15 mart 2016-cı il tarixində Ankarada 5-ci və 31 oktyabr 2017-ci il tarixdə isə Bakıda 6-cı iclası keçirilmişdir. Bu iclasların yekununda bütün sahələrdə əlaqələr müntəzəm nəzərdən keçirilmiş və bir çox sahələr üzrə əməkdaşlığı nəzərdə tutan mühüm sənədlər imzalanmışdır.

(ardı 3-cü səhifədə)

# Azərbaycan –Türkiyə diplomatik münasibətlərinin yaranmasından 31 il ötür

*Biz dünya miqyasında bir-birinə ən yaxın ölkələrik və ölkələrimiz çox böyük sınaqlardan keçibdir. Keçən il bizim qədim və tarixi şəhərimizdə – Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırdı. Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik. Ən qısa müddətdə evlərinə qayıtmalarını gözlədiyimiz azərbaycanlı qardaşlarımız üçün də hər cür səy göstərəcəyik. Yetər ki, buranın əsl sahibləri evlərinə, məskənlərinə qayıtsın.*

**Rəcəb Tayyib ƏRDOĞAN,**
**Türkiyə Cümhuriyyətinin Prezidenti**

**(əvvəli 1-ci səhifədə)**

Bu iki ölkə təkcə öz aralarında əməkdaşlıq etmir, həm də Şərqlə Qərbin, Asiya ilə Avropanın iqtisadiyyatının qovuşmasına da özünəməxsus töhfələr verirlər. Məsələn, qlobal iqtisadi layihələr Bakı –Tbilisi –Ceyhan neft, Bakı –Tbilisi –Ərzurum qaz və 30 oktyabr 2017-ci ildə Bakıda Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikası Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutmuş “Yeni İpək Yolu” nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı –Tbilisi –Qars dəmir yolu layihəsi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir.

Ekspertlər yazırlar ki, bu iki ölkənin birgə əməkdaşlıq və təşəbbüsləri ilə ərsəyə gələn “XXI Əsrin layihəsi” adlandırılan Cənub Qaz Dəhlizinin əsas hissəsi olan Trans – Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması da Türkiyə və Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığın növbəti səmərəsidir. Bu layihələr iki ölkənin regional qüvvəsini artıraraq qlobal mövqelərini möhkəmləndirir.

Bundan başqa, Azərbaycan – Türkiyə dostluq və tərəfdaşlıq münasibətləri türkdilli ölkələrin öz problemlərini və perspektivdəki planlarını məhz bir masa ətrafında əyləşərək müzakirə və həll etməsinə zəmin yaratmışdır. İndiki adı Türk Dövlətləri Təşkilatı olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası məhz Ankara və Bakının səyləri nəticəsində güclü bir iqtisadi və siyasi mərkəzə çevrilmişdir. Bundan başqa, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizəyə başlayanda onun yanında olan ilk dövlət Türkiyə Cümhuriyyəti idi.

2020-ci ilin payızındakı İkinci Qarabağ müharibəsinin yaratdığı yeni reallıqları ilk tanıyan da Türkiyə Cümhuriyyəti olmuşdu. Eləcə də, işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirak edən şirkətlərin önündə daim Türkiyə şirkətləri gedirlər.



Biz fəxr edirik ki, qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş Füzuli, Zəngilan və Cəbrayıl rayonlarının ilk ali səviyyəli qonağı olmuşdur. Onu da fəxrlə yada sala bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfərləri də məhz Ankaranın qardaşlıq münasibətlərinə ən layiqli cavab kimi qiymətləndirilir.

Bu qeydləri dövlət başçımızın 2014-cü il aprelin 26-da Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitində çıxış edərkən səsləndirdiyi fikirlərlə tamamlamaq istərdim. Xatırladaq ki, həmin tədbirdə Türkiyənin təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti Serj Sarkisyan sammitin plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma soyqırımı məsələsini qabartmış və Türkiyəni əsas tənqid hədəfi kimi seçmişdi. Prezident Əliyev isə Sarkisyana birbaşa müraciət edərək demişdi: “Bilirsiniz ki, Türkiyə burada təmsil olunmur, istifadə edirsiniz. Amma mən buradayam, sizə cavab verirəm”.

Bəli. Türkiyə bütün azərbaycanlıların, Azərbaycan isə bütün türklərin təkcə yanında deyil, həm də ürəyindədir.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**